ədalət.- 2022.- 5 fevral.- S.6.



# AŞIQ ƏLƏSGƏR FƏLSƏFƏSİNDƏ KAMİL İNSAN TƏRBİYƏSİ



*Vidadi Orucov, pedaqogika üzrə elmlər doktoru,*
*Lənkəran Dövlət Universiteti "Pedaqogika, psixologiya və incəsənət fənləri" kafedrasının professoru*

**"Həqiqi fəlsəfi fikir heç vaxt tarixə çevrilmir, o həmişə müasir qalır".**

***Əbu Turxan***

**İndiki dövrdə fəlsəfə ilə poeziyanın doğmalığı barədə heç kim mübahisə etmir. Bir çox alimlər belə hesab edirlər ki, filosof olmadan istedadlı şair olmaq çətindir, yəni şairlər həm də filosofdurlar. Sokratın təbirincə desək, poeziya ovsundur, hər kəsə qəlbini, sirrini açmır.**

Fəlsəfə ilə poeziyanı birləşdirən nədir? Bu vəhdətin əsasında, ilk növbədə bədii əsərin fəlsəfəsinin, ideyasının möhtəşəmliyinin estetik zəmində sözlə doğuluşu, dünyanın poetik yolla dərki dayanır. Hər yaranan yeni bir bədii əsər yeni bir həqiqətin ünvanına çevrilir. Bu məsələ ilə bağlı daha bir maraqlı fikir də böyük filosofumuz, professor Səlahəddin Xəlilovundur: "Bütün böyük sənətkarlar həm də ona görə filosofdurlar ki, onların əsərlərində mahiyyətlərin də təhkiyəsi var".

Mədəniyyətin, elmi-tərəqqinin inkişafına dəstək olan belə fəlsəfi ideyaların poeziya ilə sintezinin zaman-zaman bir çox nümunələri yaranmışdır. Onlardan biri də fəlsəfi lirikadır. Mütərəqqi ideyaların fəlsəfi lirika şəklinə salınması, həm də onların geniş kütlələrə çatdırılmasında və təbliğində ən uğurlu seçim olmuşdur. Dahi Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin və digər Azərbaycan şairlərinin əsərlərindəki poeziya ilə fəlsəfənin vəhdətinin uğurlu nümunələri də belə bir məktəbin davamıdır.

Fəlsəfi lirikadan məharətlə istifadə edənlərdən biri də Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, yaratdığı dahiyanə əsərlərinin dərin fəlsəfi tutumu və özünəməxsus poetik tərzi ilə könülləri fəth edən qüdrətli söz sahibi, ustad Aşıq Ələsgərdir.

Bütün Türk dünyasında böyük hörmət və şöhrət qazanmış bu dahi sənətkarın, "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 fevral 2021-ci il tarixli Sərəncamında qeyd olunur: "Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla, həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. ...Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür"...

Sərəncam milli-mənəvi dəyərlərimizə, poeziyamıza, bu sənətdə ucalıqda yeri və mənəvi haqqı olan Aşıq Ələsgər yaradıcılığına xalqımızın və dövlətimizin qayğısının və diqqətinin ən bariz nümunəsidir.

Yaranma tarixi çox qədim zamanlara söykənən aşıq sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin fomalaşmasında misilsiz rolu olmuşdur. Xalqın içindən çıxan, xalqla elə xalqın öz dilində də danışan bu müqəddəs sənətə və onun sahiblərinə vətənimizdə el məhəbbəti vardır. Azərbaycanın xalq şairi Zəlimxan Yaqubun təbirincə desək: "Biz Dədə Qorquddan üzü bu yana aşıq sənətinə mərifət, təriqət, şəriət, həqiqət sənəti kimi baxmışıq. Biz aşığa Peyğəmbər kimi baxmışıq. Onun şəxsiyyətinə ustad, müəllim, ozan, dədə səviyyəsində baxmışıq. Qurbaniyə, Dədə Qorquda, Ələsgərə, Xəstə Qasıma, Abbasa dədə demişik. Bunlar həqiqi mənada xalqın mənəvi dədələridir".

Türk dünyasının mənəvi dədələrindən birinə çevrilmiş Aşıq Ələsgərin yaratdığı əsərlərə diqqət yetirsək, hər bir kəlməsindən, fəlsəfi-lirik fikrindən onun kamil elm-ürfan əhli olduğu görünür. Aşıq Ələsgərin elmi dünyagörüşü haqqında daha düzgün təsəvvürlər formalaşdırmaq üçün onun özü haqqında öz dilindən qopan bəzi fəxriyyələrinə nəzər salsaq; "Ələsgər, elmində olma nabələd", "Ələsgərəm, hər elmdən halıyam", "Dərs almışam o Əliyyül-əladan, Xof etmərəm Xeybər kimi qaladan", "Arif məclisində, alim yanında, Neçə dəfə imtahana düşmüşəm", "Altı min altı yüz ayə..., Firdovsi, Füzuli, Hafiz, Nəsimi, Onlar da yazdığı ayə məndədi", "Ələst aləmindən, qalu-bəladan, Nuri-Əhməd yarananda danışaq", "Xalların dürrü-gövhərdi, Sərrafıyam, tanıram mən", "Dərsi azlar Ələsgərdən dərs alsın" "On iki şagirdim işlər hər yana", "Ələsgərəm, doğru yoldan azmaram", "Ələsgər, mətləbin Xudadan istə" və s. -deyən Aşıq Ələsgərin yaratdığı əsərlərdə bədii təfəkkürlə elmi təfəkkürün vəhdəti tam aydınlığı ilə görünür:

***Hikmət məclisində əyləşən alim,***
***Gəl, səninlə yol-ərkandan danışaq.***
***Ələst aləmindən, qalu-bəladan,***
***Nuri-Əhməd yaranandan danışaq.***

Və ya:

***Əgər haqq aşıqsan, "meydana gəl" de!***
***Arifsənsə, bu sözlərə "gözəl" de!***
***Farsiyyət bilirsən, şeri-qəzəl de!***
***Ərəbxansan, gəl, Qurandan danışaq!***

Aşıq Ələsgər yaradıcılığına, bir tam kimi baxdıqda başdan-başa sirli-sehirli gözəlliklər aləmidir, bu aləm içində daha maraqlısı onun əsərlərinin insanları özünə cəzb etməklə yanaşı, həm də onları fəlsəfi-lirik ideyaları ilə daha üstün düşünməyə vadar etməsidir. Bir sirr də onun sözlərinin bütün dövrlərdə canlı, insanlara təsir etmə, tərbiyə etmə, onları dəyişmə gücünə malik olmasındadır. Aşıq Ələsgərin fikirləri xalqa çatanda onu hərəkətə gətirir, elə bir təlatüm yaradır ki, el gücünə çevrilir, elin düşünmə tərzini dəyişir, istiqamətini və sürətini dəyişən sosial-pedaqoji dəyərə çevrilir və yaxud geniş vadidə su kimi bir sakitlik tapır, ruhu oxşayır, insan mənəvi bir rahatlıq tapır... Daha maraqlısı odur ki, böyük sənətkarların yaratdığı əsərlər bütün zamanlarda, bütün fəsillərdə təravətini itirmir, həmişə təzə-tər, sevilən və dəbdə olandır. Əbu Turxan demişkən: "Həqiqi fəlsəfi fikir heç vaxt tarixə çevrilmir, o həmişə müasir qalır".

Dünya, Türk xalqlarının həm maddi, həm də mənəvi sərvəti, yazılı yaddaşı olan "Kitabi-Dədə Qorqud" eposunda "Qadir tanrı verməyincə ər bayımaz" - deyilir. Bəli, bütün böyük dahilərin, o cümlədən, Aşıq Ələsgərin də Uca Tanrıdan payı bol olmuş, mütləq olaraq mayası haqqın nuru ilə yoğrulmuş, məqamı adi şairlərə verilən ilham məqamından çox-çox üstün olmuşdur.

Bir haşiyə: Belə rəvayət edirlər ki, birisi Azərbaycanın dahi və ölməz şairi Məhəmmədhüseyn Şəhriyara yaxınlaşıb deyir: "Sizin şeirlərinizin hamısı çox güclüdür, amma bax bu çox zəifdir". Cavab belə olur: "Onu mən yazmışam, geridə qalanları Allah yazdırıb".

Uca Tanrıdan payı olan hər bir bəndənin haqqı hər şeydən üstün tutması, haqdan danışması və yaratdıqlarının da haqqa söykənməsi mütləqdir. Aşıq Ələsgər də tərəddüd etmədən əmin idi ki, sözləri haqdan gələn bir paydır. Bunu onun özü tez-tez xüsusilə vuruğulayırdı: "Şükr eylərəm haqdan gələn zülümə", "Haqdan yanan çıraq bad ilə sönməz", "Əyri yola gedən haqdan utanar", "Sidqin Allaha bağlayıb, Çağırır Şahi-Mərdanı".

Aşıq Ələsgərin yaradıcılığına hansı tərəfdən baxsaq onun mərkəzində insan və onu kamala və kamilliyə aparan "uzun incə bir yol", bütöv bir tərbiyə sistemi görünür. Cəfakeşi olduğu bu müqəddəs yolda o, şərq fəlsəfəsinin ənənələrinə sadiq qalaraq insanı daha kamil görmək üçün əlindən gələnləri əsirgəmirdi. Gah sadəcə alçatan həmdəm, dost-yoldaşdır, dostu sözündən, baxışından, duruşundan anlayan, dərdinə şərik olmağı bacaran, İlahi nəğmələrinin gücü ilə qaranlığa qərq olmuş könülləri nura qərq eyləyən bir Allah bəndəsidir, gah üstad aşıq-şairdir, insanı aliləşdirən, yerin və göyün sonsuz gözəlliklərindən, sirli-sehirli dünyadan heyranlıqla söhbət açan, xəbərdar olan arifdir, alimdir, el dərdini öz dərdi bilən el ağsaqqalıdır. Eldə baş verən ictimai-siyasi hadisələrlə birgə yaşayır, yeri gələndə üsyan edir, narazılığını bidirir, "Qazıların düz bazarın görmədim" - deyir. Bəzən "Sinəmdədi eşqin şirin çeşməsi" deyən yar sevdasının nakamı, əsl aşiqdir, Kərəmdi, Məcnundu, Fərhaddı. Bəzən isə əsl duymağı, insan qəlbini bəsirət gözü ilə oxumağı, inamsızlığa qalib gəlməyi, güc və inam verməyi, həyatdan küsənləri həyata qaytarmağı bacaran müəllim-psixoloqdur. O, düşüncələrindən baş açmayanlara, öz içində boğulanlara ilahi sözün qüdrəti ilə əl uzadır, məlhəm olur:

***O qəmli könlünü, müşkül halını***
***Düşünən də yazıq, bilən də yazıq!***
***Ağlasan, ağlaram mən səndən betər,***
***Dağladın sinəmi güləndə, yazıq!***

Gah da dünyanın çoxunu da, azını da, yaxşısını da, pisini də görmüş, müşahidə, müqayisə aparmağı, nəticə çıxarmağı, insanları haqqa çağırmağı bacaran piranidir, dədədir.

Xoşbəxt bir cəmiyyət istəyir, ilk növbədə onun insanlarından Uca Tanrıya sevgi, inamla yanaşı, digər dəyərləri - doğru-dürüst olmalarını, sözü ilə əməlinin bir olmasını istəyir və bu yolu tutanlara canını da qurban eləyir:

***Mən istərəm, alim, mömin yüz ola,***
***Meyli haqqa doğru, yolu düz ola,***
***Diliylə zəbanı üzbəüz ola,***
***Ələsgər yolunda can qurban eylər.***

"Altı min altı yüz ayə məndədi" deyən, hafizliyi ilə qürur duyan Aşıq Ələsgər həm də İslam dininin gözəl alimlərindən biri idi. O, insanın yer üzünün əşrəfi olduğunu dəqiqliklə bilirdi, poeziyasının aparıcı ideyası da elə kamil insan idi.

Aşıq Ələsgər, insanlığın tərbiyə olunmasında xilas yolunu "İnsanların tanrısına" xidmət etməkdə, əsmaül-hüsnanın mənasını bilməkdə, əzbərləməkdə, saymaqda, onun gözəlliklərinə vurulmaqda və onlara əməl etməkdə, islami dəyərlərin zənginliyində gördü. O, insanların doğru-dürüst, halal olmasını istəyirdi və cəmiyyətin uğurunu, üstünlüyünü də uzaqgörənliklə bunlarda bilirdi. Zəmanəsinin qabaqcıl ziyalısı, sayılan aşığı kimi bir sıra insanları tərif etsə də, əslində insanlarda olan üstün insani dəyərləri təbliğ edirdi. Həm də möhtəşəm poeziyasının, fəlsəfi-lirik ideyalarının təsiri ilə müxtəlif yollarla diqqəti daha müasir və humanist tərbiyəyə yönəldirdi.

Aşıq Ələsgər dövründən sonra dünyada elm, texniki-tərəqqinin sürətli inkişafı hesabına insanlara xidmət göstərən bir sıra qabaqcıl texnalogiyalar yaradıldı.

Lakin cəmiyyətin əsas problemlərindən biri olan humanist insan ehtiyacı, onun modeli və tərbiyəsi ilə bağlı məsələlər indi də qlobal olaraq qalmaqdadır. Burada əsas məsələ, humanist insan tərbiyəsi baxımından insanların bir-birini başa düşməsi, duyması, hörmət etməsi və insanlığın əldə etdiyi nailiyyətlərin qorunması ilə bağlı bir məsuliyyət hissinin formalaşdırılmasıdır. Bu görünən və düşündürücü problem inkişaf etmiş dövlətləri daha çox narahat etməkdədir. ABŞ-ın görkəmli təhsil nəzəriyyə-çisi Hovard Qardner yazır: "İnsanların bir-birini başa düşməsi səviyyəsinin yüksəldilməsi baxımından nə olursa olsun, təhsil öz məxsusi təsdiqini tapmalıdır. Bütün elmlərin əsas obyekti insan olmalıdır".

Aşıq Ələsgərin düşüncəsindəki insan obrazı mələk simalıdır, əxlaqlıdır. Onun düşündüyü kamil insana aid olan dəyərlər sırasında bir Allah bəndəsi, humanist olmaq ideyası hər şeydən öndədir. Belə bir müqəddəs, eyni zamanda mürəkkəb tərbiyə modelinin formalaşmasında o, mərifət elminin rolunu xüsusilə vurğulayırdı. O, mərifəti ayrıca elm hesab edir, hər kəsin bu elmdən hali olmasını istəyir: "Nütfədən pak olan, loğmadan halal, Mərifət elminə nabələd olmaz", kamil insan üçün isə bir qayda olaraq "Mərifət elmində dolu gərəkdi" - deyir. Siracəddin Hacı yazır: "Arınmış, nurlanmış, bəsirət gözü açılmış qəlb, yəni vəhylə inşa olunmuş qəlb və ağıl mərifətullaha qovuşa bilər", daha sonra "mərifət elmdir, elm də mərifətdir, mərifət elmi olan da arifdir... arif alimdir; mərifətin mənbəyi uca Allahdır, sonu isə yoxdur".

Ustad aşıq özünü alim hesab edənlərə belə, mərifət elminin önəmli olmasını və bu elmə əməl etmələrini tövsiyə edir:

***Alimin elmiylə helmi yarıdı,***
***Həcvü-hədyan demək nahaq söhbətdi.***

Aşıq Əlsgər eyni zamanda insanların tərbiyə olunmasında mərifət elminin hər kəs üçün deyil, onun kamilliyə aparan dərin bir elm olduğunu, seçilmişlərə-ariflərə aid olduğunu da vurğulayır: "Arif məclisində bir söz söylərəm", "Bir söz söyləyərəm, ariflər qanar", ... "Oxu "əlif", "ğeyn", "eylə haqq-say", "Arif seçər əbcəd ilə cəm əli", "Gövhər sözüm məclislərdə yayılı, Arif ondan mətləb qanıb ayılı", "Arif ola, eyham ilə söz qana", "Bu, bir müəmmadı, ariflər qanar, Nadan bu elmdən hali ola bilməz", "Arifsənsə, bu sözlərə "gözəl" de" və nəticə olaraq "Arif olan hər insana gözəldi" - deyir şair.

Aşıq Əlsgər düşüncəsindəki insanı ağıllı, savadlı, mərhəmətli və müasir dünyagörüşlü görmək istəyir. İnsanlarda belə dəyərlərin formalaşmasının yeganə yolunu isə ilk növbədə onların təhsil almasında görür. Həm də boş-boşuna yox, tələblər dəqiq elmi-pedaqoji əsaslara söykənir. Təhsil alan dərs almalı, öyrənməli və öyrəndiyini də öz malı etməyi bacarmalıdır. Böyük bir pedaqoji prosesin ardıcıllığını, məqsədini və nəticəsini öz şəxsi nümunəsində təcrübəli şair, alim-pedaqoq kimi dahiyanə, hər kəsə yetəcək üsulla, fəlsəfi-lirik dildə şərh edir:

***Yazıq Ələsgərəm, azdı kamalım,***
***Vacibdi ki, bir ustaddan dərs alım.***
***Dərs aldım, öyrəndim, oldu öz malım,***
***Bizdən də ustada nəfi rəhmətdi.***

Əxlaq insan davranışı ilə əlaqəli olduğundan, insan tərəfindən istifadə olunan bütün dəyərlər aksiologiyanın predmetidir.

Yunan alimlərindən Demokrit əxlaq qurucusu, Sokrat isə əxlaq filosofu kimi tanınır.

Bu baxımdan Aşıq Ələsgəri əxlaq şairi, əxlaq aşiqi, əxlaq müəllimi kimi qəbul etməliyik. Onun yaradıcılığına fikir versək görərik ki, aksiologiyanın diqqəti daha çox çəkən tərbiyəli-tərbiyəsiz, yaxşı-pis, xeyir-şər, xoşbəxtlik-bədbəxtlik, vicdanlı-vicdansız və s. kimi dəyərlərinə tarixi ənənə, milli dəyərlər baxımından aydınlıq gətirir. Mahiyyət etibarı ilə Aşıq Ələsgərin fəlsəfi-lirik ideyalarında ümumbəşəri dəyərləri özündə ehtiva edən əxlaqi-mənəvi keyfiyyətlərin formalaşmasının vacibliyindən, bunun bir çox tarixi hadisələrə və insanların həyatına mənfi və müsbət təsirlərindən bəhs edilir.

Onun təkcə aşıqlara deyil, hamı üçün qanuna çevrilən, əxlaqi-mənəvi keyfiyyətlərlə zəngin məşhur "Gərəkdi" rədəfli qoşması başdan-başa "təmiz əxlaqın" fəlsəfi məktəbidir:

***Aşıq olub, diyar-diyar gəzənin,***
***Əvvəl, başa pür kamalı gərəkdi.***
***Oturub-durmaqda ədəbin bilə,***
***Mərifət elmində dolu gərəkdi.***

**Aşıq Ələsgərin elmi-fəlsəfi düşüncəsində, bir birindən maraqlı və çox çeşidli dünya anlayışları mövcuddur. O, bu dünyalarda sərbəst olaraq birindən digərinə transfer etməklə, öz düşüncələrini, qənaətlərini, hesab etdiyi üstün dəyərlərlə oxucusunu maarifləndirməyə, tərbiyə etməyə çalışır.**

**(ardı növbəti sayımızda)**